*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 193-199*
https://doi.org/10.62837/2024.3.193

**BABAYEVA NALAN YAVƏR**
*E-mail:*
*lbabayeva778@gmail.com*
***Bakı Slavyan Universiteti***

# "YARIMÇIQ ƏLYAZMA" ROMANI POSTMODERNİST ƏSƏR KONTEKSTİNDƏ

**Açar sözlər:** *Postmodernizm, Kamal Abdulla, Dədə Qorqud, Şah İsmayıl, Yarımçıq Əlyazma*

**Keywords:** *Postmodernism, Kamal Abdulla, Dada Gorgud, Shah İsmail, The İncomplete Manuscript*

**Ключевые слова:** *Постмодернизм, Камаль Абдулла, Дада Горгуд, Шах Исмаил, Незаконченная рукопись*

Postmodernizm anlayışı ədəbiyyat və mədəniyyətdə yeni-yeni ortaya çıxdığı dövrdə dünya tədqiqatçıları tərəfindən müxtəlif şəkildə izah edilməyə çalışan bir sənət növüdür. Müstəqillik dövründən başlayaraq postmodernizm ənənələri Qərb ədəbiyyatının təsiri ilə Azərbaycan nəsrində yeni tipli düşüncə tərzində ortaya çıxırdı. Milli özünəməxsusluq, janr, sintez baxımından fərqlilikləri ortaya qoyan, həmçinin, Şərq və Qərb ədəbi xüsusiyyətlərinin özündə əks etdirən yeni əsərlər ortaya çıxırdı. İntellektual təhkiyə janrının müəllifi olan tanınmış yazıçı Kamal Abdulla geniş yaradıcılığa malikdir. Müəllif tarixi faktlar, nəsrdə yenilik, hadisələr fonunda yeni mətn yaradıcılığı ənənəsini ortaya çıxardı və bunu ustalıqla cəmiyyətə təqdim etməyi bacardı. Postmodernizmin qəlibləşmiş xüsusiyyətlətlərini öz qələminə uyğunlaşdıraraq təfəkkürün gücü ilə yeni bir növ meydana gətirdi. "Sehrbazlar dərəsi", "Yarımçıq əlyazma", "Tarixsiz gündəlik", "Sirlərin sərgüzəşti" romanları ilə ədəbiyyatda yenilik yaratmağı bacarmış Kamal Abdulla şeir, hekayə və digər əsərlərində postmodernist qaydaların istifadəsinə rast gəlinir. Yazıçının təqdim etdiyi "Yarımçıq əlyazma" əsəri intellektual postmodernizm nümunəsi kimi özündə əks etdirən bir çox təhlillərdən, mətndən mətn yeni mətn yaratmaq və bir çox ciddi məsələlər ön plandadır. Kamal Abdulla yaradıcılığı ədəbiyyatda ümumi bədii təfəkkürdə gedən prosesləri, baş verən dəyişiklikləri özündə əks etdirir.

Ədəbiyyatda ənənəvi və məntiqli şəkildə yeni mərhələnin başlanğıcı, davam etdirilməsi prinsipi ilə müəllif-oxucu arasında real bir bağın yaranması zəruri idi. Müəllifin təsəvvüf dünyagörüşü ilə sintez olunan bu postmodernist baxış Kamal Abdullanın ədəbiyyat tarixində uğurlu bir mərhələ kimi yadda qaldı.

"Yarımçıq əlyazma" əsəri tarixilik və müasirlik xüsusiyyətlərini öz daxilində ehtiva edir. Əsərdə bir çox hadisələr cərəyan edir. Əsərin dili olduqca sadədir. Yazıçı hər kəsin bildiyi qəlibləşmiş "Kitabi-Dədə Qorqud" dastanının mətnini təxəyyülünün gücü ilə dəyişdirərək fərqli bir biçimdə təqdim edir. Mifoloji qəhrəmanları sarkazmla təqdim edilir və gözdən salınır. Məsələn, Dədə Qorqud dastanda müdrik şəxs və ağsaqqal kimi görünsə də, əsərdə Bayandur xanın qulluqçusudur. Deməli, Kamal

Abdulla yeniliyi bizim dastan haqqında olan sabit fikirlərimizi dağıdır. Dastandan fərqli olaraq, əsərdə çox müsbət hadisələri özündə ehtiva etmir və tragikomik vəziyyət yaşanır. Müəllifin məqsədi dastanı gözdən salmaq deyil, postmodernizmi inkişaf etdirib yenilik kimi modern oxucunun qarşısına çıxarmaqdır. Əsər həm də sınaq rolunu oynayır. Romanın postmodernist əsər kimi yüksək qiymətləndirilməsi, yeni bir rakursdan baxmaq və obrazlılığı ilə yüksək tənqid hədəfi kimi görüldü. Ancaq bu tənqidlər əsərin adına xələl gətirə bilmədi, əksinə daha da şöhrətləndirdi.

Xalqımızın milli-mənəvi dəyəri sayılan "Kitabi-Dədə Qorqud" dastanının motivləri və Şah İsmayıl kimi böyük dövlət xadimi, sərkərdə şəxsiyyətin əsasında yazılmış əsərdə beynimizin dərinliklərində qalan bir çox reallıqlar müəllifin təxəyyülü ilə birləşir. "Yarımçıq əlyazma" adından da göründüyü kimi natamam hissələrdən ibarət olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanının günümüzə qədər çatmayan hissələrində müəllif təxəyyülü özünü göstərir. Dastanda gördüyümüz kimi hər şeyi müsbət və bildiyimiz şəkildə deyil, dəyişərək gözləntiləri yıxdı. Kamal Abdulla postmodernizm mahiyyətini qavrayaraq təhlil etməyi bacardı.

Dünyagörüşünə görə postmodernizm qəliblərdən və sərhədlərdən uzaqdır. O bütün maneələri asanlıqla keçmişdir. Əsərin dilində mətn əsasdır, burada postmodernist əsərin dilində mərkəzi, əsas qəhrəman yoxdur. "Yarımçıq əlyazma" əsərinin dili xalq dilinə yaxındır. Oğuz elində baş verən hadisələr qələmə alınmaqla yanaşı, müəllif qələmindən süzülən fikirlər də bura əlavə edilmişdir. Baş verən hadisələr insanların başa düşəcəyi şəkildə istifadə edilmişdir. Arxaizmlərə də yer verilmişdir, sanki oxucunu o dövrə səyahətə aparır. Dədə Qorqud ədəbiyyatda geniş istifadə olunan mövzu olmuşdur. Kamal Abdullanın bu qədər geniş bilgiyə sahib olması, həm də onun qorqudşünas olması ilə əlaqədardır. Kamal Abdulla özü qələmə alıb ki, Dədə Qorqud boyları zamanın harmoniyalı vaxtında yaranıb. Dastanda isə harmoniya pozulub bütövlük vəhdətini itirib, ən kiçik situasiyaya qədər hər şey gərilib. Romanda Oğuz elinin "casusluq" məsələsi ortaya çıxmışdır. Xəyanət motivi və onun nəticəsi özünü fərqli göstərir. Dədə Qorqudda casus buraxılsa da, Şah İsmayıl dövründə qaçan sərkərdə ağır cəzaya məhkum edilir. Bunun axtarılması bir növ istintaq xəttinin seçilməsi uğurlu bir gedişatdır. Oğuz cəmiyyətinin daxili mənəvi-əxlaqi məsələləri də ortaya çıxır.

Postmodernizmə xas xüsusiyyətlərdən biri də odur ki, əsərdə bir hissədən digər hissəyə keçid fərqlənməsi özünü göstərir. Keçidlər bir-birini tamamlamır, lakin bu oxucuda problem yaratmır. Boylardan fərqli olaraq, düşmən motivi kənarda deyil daxildədir. Əsərdə xarici düşmənin deyil, daha çox daxili düşmənin qorxulu olduğu göstərilir. Bayandur xan daxildəki düşməni tapmağa çalışır ki, Oğuz elinə nifaq salanın kim olduğunu bilsin. Çünki Oğuz cəmiyyəti zəifləsə, pusquda durmuş düşmənlər cəsarətlənər.

Keçmiş ənənələr bu günümüzdən sabaha qədər yenilik və postmodernizmin həqiqətlərinə uyğun olaraq reallıqların üzərindən xətt çəkir. Kamal Abdulla bütün əsər boyu böyük həqiqət olan zamanın varlığını oxucuya çatdırır. Bütün roman həqiqəti öz içərisində saxlayır və düzgün zamanda üzə çıxarır. Roman müəllif tərəfindən böyük inandırıcılıqla qələmə alınıb. Əsərdə istintaq zamanı nəzərə çarpan

amillərdən biri də odur ki, Bayandur xan Dədə Qorqudun hadisələri qeydə almasına diqqət yetirir. İlk öncə diqqəti çox da cəlb etməyən bu işarələr oxucunun nəzərinə sonradan çarpır və bəlkə də bu işarələrin dastanın yazıya alınmasında böyük rolu olduğunu düşünür. Qorqud tarixdə baş vermiş hər şeyi olduğu kimi qələmə almış və sonrakı dövrlər üçün böyük igidlik dastanı qoymuşdur.

Kamal Abdulla romanı qələmə alarkən dastanın dəqiq tarixi mənbələrdən və əlyazmalardan istifadə etmişdir. Tarixiliyi və yeniliyi özündə qoruyub saxlamaqla bərabər, həm də əsərdə müəyyən dəyişikliklər də etmişdir. Tədqiqatçıların bir çox araşdırmaları əsas verir ki, biz Qorqudun yazdığı sənədləri gizlətdiyini düşünək. Oğuz eli daxilində nifaq, xəyanət toxumlarının olması düzgün deyil və bunu gələcək nəsillər bilməməlidir. Bəlkə də bunu gizlətmək və tarixin səhifələrindən silmək lazımdır. Müəllif bu qənaətə əlyazmaları tədqiq edərkən gəlmişdir və Dədə Qorqud, Şah İsmayıl haqqında tarixdə əks olunmayan fikirlər ortaya çıxarmışdır. Bu tədqiqatlar nəticəsində romanın oxucuda yaratdığı təəssürat ilə bir çox oxucular yeni tapılmış bu əlyazma barədə məlumat almağa çalışmışdılar. Keçmişə, klassik dəyərlərə qayıdış postmodernist ənənənin əsasında duran başlıca prinsiplərdən biridir. Buna görə “Yarımçıq əlyazma” romanı tarixi-mədəni irsə qayıdışını müasir cəmiyyətin mövcud sosial-ictimai problemləri şərtləndirir. Əsərin ikinci vacib hissəsində Şah İsmayıl xəttində tarixə qayıdış bu amaldan qaynaqlanır. Romanın hissələri arasında hadisələrin əlaqəsinin olmaması da bəzi tənqidçilərin öz iradlarını şərh etmək üçün zəmin yaratmışdır. Postmodernist poetikaya görə, tarix düz xətt üzərində inkişaf prosesi olmayıb bir-birinə bağlılığı olmayan hadisələri bir məcrada qovuşdurmağa edilən cəhddən ibarətdir. Bu konsepsiyanın fraqmentarlıq, xaos və başqa əsas prinspiləri nəzərə almayan müəlliflər “Yarımçıq əlyazma” romanını ənənəvi elmi-nəzəri baxış bucağından təhlilə çəkmişlər. Yazıçı romanın oğuzlarla bağlı hissəsini “Dədə Qorqud" planının əsasında vermişdir. Həmçinin, dastanın ifadə və mahiyyət etibarilə planlı şəkildə qurulmasını görmək mümkündür. Beləliklə, romanda iki əsas süjet xətti, həm “Dədə Qorqud", həm də Xətai planı görülür. Əsərin hər iki hissəsində fərqli “etiraz” formaları üzə çıxır. İlk hissədə Oğuz cəmiyyətinin içini parçalayan “səbəblər" üzə çıxır. İkinci hissədə isə Səfəvi dövlətində Şah İsmayılın hakimiyyəti və müharibə dövrünə təsadüf edir. O, sanki zamana etiraz edirdi. Məhz bu səbəbdən Şah İsmayıl öz yerini bənzərinə verib zamana qarşı dayanır.

Əsəri bir çox cəhətdən araşdırdığımız zaman içərisində olan qəhrəmanlara verilən adlar da diqqəti cəlb edir. Bəlkə də, məhz bu baxımdan Şah İsmayılın yerinə keçirdiyi şəxsə Xızır adı verilmişdi. Bu ad dünya mifologiyasında və dinlərdə ölümsüzlük simvolu kimi sayılırdı. Dünya mədəniyyəti tarixində ilk dəfə olaraq ölümsüzlük axtarışına çıxan Gilqameş, daha sonra türk mifologiyasında oğuzların “Kitabi-Dədə Qorqud” dastanında Dəli Domrulun Əzrayılla döyüşməsi səhnəsi təsvir edilir. İsgəndər kimi tarixi şəxsiyyət də ölümsüzlüyün çarəsini axtarsa da, Xızırdan başqa heç kim buna nail ola bilmir. Kamal Abdulla tarixdə Şah İsmayıl adının verdiyi böyüklüyü alçaltmamaq üçün bəlkə də, bilərək ona Xızır adı verir. Onu

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 193-199*
tarixdə ölümsüz olmasını göstərir. Bu xüsusiyyətlər postmoderrnist əsər nümunəsi olaraq çox ona uyğundur.

XX əsrdə meydana çıxmasına baxmayaraq postmodernizm böyük səs-küyə səbəb olmuşdur. O, janr xüsusiyyətləri, sintez və dəyişiklikləri ilə seçilirdi. Kamal Abdullanın başçılığı ilə xüsusilə də, roman və epos anlayışı ilə bərabər yazılmış "Yarımçıq əlyazma" romanı məqsəd və qayəsini burada hiss etdirib. Romanda Azərbaycan obrazı var və bu yeni olduğu qədər də köhnə Azərbaycandır. Əsərin postmodernist estetika ilə ərsəyə gəlməsi qənaətində olanlar da mövcuddur. Əsər mədəniyyət romanı kimi də səciyyələnir. Quruluşca mürəkkəb, qeyri-müəyyən, hüdudsuz olması daxilində bir çox xüsusiyyətləri özündə əks etdirir. Postmodernizm estetikası bəşər təcrübəsini, mədəniyyətləri görmə imkanı verən bütün obrazları ədəbiyyata gətirib çıxarır. Əsərin əvvəlindəki kimi müəllifin Əlyazmalar İnstitutuna girib orada Oğuz və Səfəvi dövrünə aid məlumatları araşdırıb daha sonra onları yeni dövrə uyğun vəziyyətə gətirir. Romanda tarixi, fəlsəfi və detektiv janrın əlamətləri mövcuddur. Hətta əsər Umberto Ekonun "Qızılgülün adı" əsəri ilə də müqayisə edilir. Yazıçı qələmə aldığı əsər ilə min illərin düşüncəsi olan mifi dağıdır.

Dədə Qorqudun qeydləri kimi təqdim olunan hadisələr gizli saxlanılır və bəzi ağla gəlməyən məzmunla doldurulur. Əsərin ikinci qatında rastladığımız tarixi hadisələr Azərbaycan ideallarını əks etdirir. Bu qatda Şah İsmayıl Xətainin həyatı göstərilir. Daha çox tarixi deyil, sanki bədii təfəkkürün məhsulunu xatırladır. Dədə Qorqud və Şah İsmayıl. Dədə Qorqudla bağlı hissə əsərdə daha çox yer tutur. Ancaq hadisələr əlaqəsiz tarixlər olsa da, sanki aralarında qırılmaz bir əlaqə var. Şah İsmayıl, Lələ, Vəzir və başqa obrazlar oxucunun diqqətini çəkməklə yanaşı, həm də bildiyimiz təsəvvürləri dibdən silkələyir. "Yarımçıq Əlyazma" təkcə qeydlərdən və əlyazmalardan ibarət deyil. Bu qeydlər ilə bir mətləbin açılması məsələsi üzə çıxır. Bu müşahidələr damla-damla ortaya çıxır və müəllif bunu istintaq kimi prosesə çevirir. Dastanda qaranlıq məsələlər üzə çıxır. Oğuz elindəki düşmənçiliyin əsas səbəbi gedişatda üzə çıxır. Əsəri oxuyan şəxs çox vahiməli və mürəkkəb, eyni zamanda da çox sadə, komik bir vəziyyətə düşdüyünü hiss edir. İnsanların uzaq tarixi dövrdə də bizim indi yaşadığımız hissləri yaşamasının şahidi oluruq. Salur Qazanın dastan və əsərdə fərqli göstərilməsini görən oxucuda yeni fikirlər meydana çıxır. Salur Qazanın ova çıxması, düşmənin buranı çapıb-talaması heç də adi göstərilməyib. Gəncə zəlzələsi nəticəsində düşmənin dağılmış şəhəri talamaq məqsədilə gəlməsinə eyham vurulur. "Yarımçıq əlyazma" aldadıcı yarımçıqlığına baxmayaraq, qorqudşünaslıqda bir təbəddülat yaradacaq. [2,35]

Dastanın yazılışı mifopoetik qanunlarına uyğun şəkildə, bir növ heykəl kimi göstərilir. Beləcə, qədim Oğuz cəmiyyəti öz həqiqi, real mənəvi sərhədlərini görməyə başlayır. Əsərin postmodernist ideyaları fonunda Dədə Qorqud və Şah İsmayıl tarixi obrazlarını əks edən müəllif onları çılpaq gözlə göstərməyə çalışır. Oxucu sanki əlyazma içərisində əlyazma oxuyur. Burada göstərilən şəxslər sadə insanlardır. Dədə Qorqudun hazırlıq qeydləri, müşahidələr, sxematik və rəmzi işarələr bir çox məqamlarda ortaya çıxır. Roman özünün bəzi yerlərdə kəsildiyi, yarımçıq qoyduğu məqamları xüsusi ehtiyac duyulan zaman yerində, əlbəttə ki, çox

özəl subyektiv şəkildə açıqlayaq. Bu açıqlamalar mətn boyu aparılanda daha təsirli olur.

Bir məsələni aydınlaşdırmaq lazımdır ki, əsərin əsas qatı iki müxtəlif, amma bir-birini tamamlayan istiqamətlərin paralel, yanaşı ifadəsidir. Oğuz cəmiyyətinin daxilində baş verənlər çox qədim dövrdə keçən əhvalatlar, Bayandır xanın tərəfindən aparılan istintaq prosesi qələmə alınır. Müəllif böyük yaradıcılıq qabiliyyəti ilə dastanın əsasında yeni əsəri yazarkən tarixi mənbələrdən istifadə edir. Bunu inkar etmək olmaz. Kamal Abdulla novator kimi, Azərbaycan ədəbiyyatında postmodernist ideyaları əks etdirə bildi. Ağır və möhtəşəm yaradıcılıq işini, əlbəttə ki, qeydlər olmadan həyata keçirmək olmazdı. Müəllifin bu və ya başqa qəhrəmanla, personajla, məqam və ya hadisə ilə bağlı düşüncələri, müşahidələri çox güman ki, yüksək obyektivliyə yaxın sayıla bilər. Mətndə, yəni "Kitabi-Dədə Qorqud" dastanında biz kəskin transformasiyalarla qarşılaşırıq. Əsər xalqın mənəvi yüksəlişini və fərqini də göstərir. Dastandakı və əlyazmadakı eyni adamların bir-birindən kəskin fərqlənməsi isə o qədər də böyük əhəmiyyət daşımır.

Beləliklə, postmodernizm ilk növbədə müəyyən mentalitetin, dünyada insanın yerini və rolunu, həmçinin insanın ilk növbədə onu dərk etməsi ilə əlaqədar üzə çıxmasına xidmət edir. Azərbaycan ədəbiyyatında da postmodernizmin fəlsəfi-estetik kateqoriya kimi özünəməxsus elementləri aydın şəkildə izah edir. Kamal Abdulla bu fikir ənənəsini davam etdirərək, yaratdığı tarixi qəhrəmanların arxetipi ilə fərqləndi. Eyni zamanda, əsər boyu obrazların daxili fikir mübarizəsini də olduqca güclü əks etdirməyi bacarıb. Qeydləri yekunlaşdıraraq, Kamal Abdulla mətnində postmodernist mətnin spesifik keyfiyyətlərinin əks olunması baxımından böyük əhəmiyyət kəsb etdiyini görə bilərik.

## Ədəbiyyat

1. Kamal Abdulla. Yarımçıq əlyazma. Yenidən işlənmiş ikinci nəşr – Bakı: Mütərcim, 2012.- 292 səh.
2. Salidə Şərifova. Çağdaş Azərbaycan postmodern romanı. Bakı, "Elm və təhsil", 2015, 104 səh.
3. https://525.az/news/156056-kamal-abdullanin-postmodern-nesrinde-oxsar-obrazi-yazi
4. http://www.anl.az/down/meqale/edebiyyat/2019/iyul/666407.htm

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 193-199*

**N.Y.Babayeva**

**Xülasə**

## "YARIMÇIQ ƏLYAZMA" POSTMODERNİST ƏSƏR KONTEKSTİNDƏ

"Yarımçıq əlyazma" əsəri ədəbiyyatımızda postmodernizmin ilk nümunələrindəndir. Postmodernizm və onun qayda-qanunları son dövrlərdə geniş yayılmışdır. Müəllif tarixi qəhrəmanları müasir vəhdətdə birləşdirir. Əsər yarımçıq yazılmış əlyazma formasında tapılaraq, müəllif tərəfindən qələmə alınıb. Yazıçı təxəyyülü keçmişi yeni dövrə uyğunlaşdıraraq qələmə alır. Tarixi obrazlar olan Dədə Qorqud və Şah İsmayıl oxucuya fərqli zəmində təqdim edilir. Hadisələr, obrazlar, süjet və əsərin qayəsi orijinal məzmuna malik, modern yanaşma ilə göstərilir. Əsərdə bəzi hissələrdə keçidlər mövcuddur. Dastan yaradıcılığını və onun detallarını yeni tipli nəsr nümunəsi kimi göstərmişdir. Əsər müəllif yaradıcılığının zirvəsini təşkil edir. Romanın mif və zəngin qədim nümunələrlə təşkil olunması onun rəngarəngliyini artırır. Müəllif Oğuz elini, Səfəvilər dövlətini yeni ideya və tipdə yazılı nümunələrlə ərsəyə gətirmişdir.

**N.Y.Babayeva**

**Summary**

## THE NOVEL "THE İNCOMPLETE MANUSCRİPT" İN THE CONTEXT OF POSTMODERNİST WORK

The work "Unfinished Manuscript" is one of the first examples of postmodernism in our literature. Postmodernism and its rules have become widespread in recent times. The author's heroes are one in modern unity. The work was found in the form of an incomplete manuscript and was written by the author. The writer's imagination corrects the past by adapting it to the new era. Deda Gorgud and Shah Ismail, who are historical characters, are presented to the reader on a different basis. The events, characters, plot and the rock of the work are original, with a modern approach. There are links in some parts of the work. Dastan showed his creativity and its details as an example of a new type of prose. The work is the peak of the author's creativity. The organization of the novel with myths and rich ancient examples increases its diversity. The author created the Oghuz dynasty, the Safavid state with new ideas and written examples.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 193-199*

**Н.Й.Бабайева**

**Резюме**

**РОМАН “НЕОКОНЧЕННАЯ РУКОПИСЬ” В КОНТЕКСТЕ ПОСТМОДЕРНИСТСКОГО ТВОРЧЕСТВА**

Произведение “Неоконченная рукопись” один из первых образцов постмодернизма в нашей литературе. Постмодернизм и его правила получили широкое распространение в последнее время. Герои автора едины в современном единстве. Работа найдена в виде неполной рукописи и написана автором. Воображение писателя корректирует прошлое, приспосабливая его к новому времени. Деда Горгуд и Шах Исмаил, являющиеся историческими персонажами, представлены читателю на иной основе. События, персонажи, сюжет и рок произведения оригинальные, с современным подходом. В некоторых частях работы есть ссылки. Дастан показал свое творчество и его детали как образец нового типа прозы. Произведение является вершиной творчества автора. Организация романа мифами и богатыми древними примерами увеличивает его разнообразие. Автор создал династию Огузов, государство Сефевидов новыми идеями и письменными примерами.

***Rəyçi: f.e.d prof.Quliyeva Rəhilə Hüseyn qızı***